

Fikrət Qoca

## Xalq şairi, dostum Nəriman Həsənzadəyə

*Zarafatyana*

*Elə şirin dili var, -*
*İlanı da yuvasından çıxarar.*
**El sözü**

Yazıçılar bağında
Dedilər ki, ilan var;
Dedim ilan var, oslun!
Bizim aramızda da
Şirindil bir Nəriman var.
Nəriman keçdi qabağa:
- Hardasan, ilan qağa,
Bizdən nə deyiblərsə,
Yalan deyiblər, yalan!
Çıx görək gül üzünü
Ey böyük, gözəl ilan!
Nə işin var yer altda,
Qaranlıqdı, soyuqdu.
İnan ha aramızda
Səndən yaxşısı yoxdu.
Daha biz müstəqilik,
Azaddır hər cür ilan.
İstəyirsən çıx ordan
Gəl boynumuza dolan.
İlan çıxdı yuvadan,
Gözündə yaş var idi...
Nərimanın da əlində
Bir yekə daş var idi...

**Fikrət QOCA**